"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
Tel.: (+994 12) 447 70 03 (04) Faks: (+994 12) 565 04 54
www.azerinsaat.com

AZƏRİNŞAAT

PRES RELİZ

# "Azərinşaatservis" MMC "Bakı dairəvi yolu"nu Bakı-Quba-Rusiya sərhədi avtomobil yoluna birləşdirən körpünün birinci hissəsini inşa edir.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2009/06/13*

"Azərinşaatservis" MMC "Bakı dairəvi yolu"nun tikintisi layihəsi çərçivəsində Bakı dairəvi yolunu Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yoluna birləşdirəcək olan "Körpü-1" layihəsi çərçıvəsində tunelin birinci hissəsinin tikintisini davam etdirir.

"Körpü-1" layihəsi üzrə inşa ediləcək tunel vasitəsiylə Ələt isiqamətindən Bakı dairəvi yolu ilə hərəkət edən avtomobillərin Bakı-Quba-Rusiya avtomobil yoluna və Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal kompleksinə çıxışını təmin etmək nəzərdə tutulur. Avtomobillərin sıx hərəkət etdiyi Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun 7-ci kilometrində yolun altından keçməklə inşa ediləcək olan tunelin hazırlanması istiqamətində işlər sürətlə davam etdirilməkdədir. Layihəyə əsasən eni 14 metr olaraq inşa edilməsi nəzərdə tutulan tunel iki hərəkət zolağından ibarət olacaq. Hal-hazırda layihə üzrə sıvay işləri və qazma işləri görülür, beton qəliblər hazırlanır. Layihəyə əsasən ərazidən keçən kommunikasya xətlərinin yerlərinin dəyişdirilməsi işlərinə başlanılıb.

Tikinti işlərinə görə Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda avtomobillərin hərəkəti BDYP-nin razılığı ilə qismən məhdudlaşdırılıb. Tunelin birinci hissəsinin tikintisi üçün Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda Sumqayıt-Bakı istiqamətində avtomobillərin hərəkəti dayandırılmış, bu istiqamətdə hərəkət edən yük maşınlarının hərəkəti Yasamal rayonu ərazisindən keçən Xiyabani küçəsi vasitəsiylə Mətbuat prospektinə və Badamdar qəsəbəsinə istiqamətləndirlmişdir. Minik avtomobillərinin hərəkəti isə əks tərəfdən gələn Bakı-Sumqayıt istiqamətindəki tunelə istiqamətləndirilmişdir.

Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədiylə bütün təhlükəsizlik tədbirləri görülmüş, lazımi yol nişanları və inaformativ lövhələr, xəbərdaredici təhlükəsizlik lövhələri yerləşdirilmişdir, günün qaranlıq vaxtlarında tikinti işləri aparılan sahələrin işıqlandırılması təmin edilmişdir.

"Azərinşaatservis" MMC-nin "Bakı dairəvi şosse yolu"nun tikintisi layihəsi çərçivəsində "Körpü-1" layihəsi üzrə həyata keçirdiyi tikinti işlərini sentyabr ayının ilk hissəsində tamamlamağı planlaşdırır.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**